# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ
# Q Ə R A R

## Əlincədağ təbiət abidəsinin təşkil edilməsi haqqında

"Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 iyul tarixli 366 nömrəli Fərmanının 2-ci hissəsinin beşinci abzasına və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 12 iyul tarixli 169 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təbiət abidələrinin və onların yerləşdiyi ərazilərin təşkili Qaydaları"nın 5-ci hissəsinə əsasən, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikasının Culfa rayonu ərazisində, Əlincəçayın sağ sahilində və Zəngəzur silsiləsinin suayırıcısındakı Aracı yüksəkliyindən cənub-qərbə ayrılan Dibəkli qolunun eyni istiqamətli Qırxlardağın şərq yamacında yerləşən, hündürlüyü 1821,4 metr olan Əlincə dağına respublika əhəmiyyətli təbiət abidəsi statusu verilsin və həmin dağ Əlincədağ təbiət abidəsi adlandırılsın.
2. Əlincədağ təbiət abidəsinin yerləşdiyi ərazinin təşkili və mühafizəsi üçün Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Culfa Rayon İcra Hakimiyyəti bu obyektin yerləşdiyi ərazinin torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri ilə birlikdə qanunvericilikdə nəzərdə tutulmuş qaydada tədbirlər görsünlər.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 9 sentyabr 2024-cü il

№ 418